**Fərəcova Z.** İgid döyüşçü, etibarlı silahdaş // Azərbaycan : - 2024. - 8 avqust. - **№ 167**. - S. 8.

**O, Aprel döyüşlərində də, İkinci Qarabağ müharibəsində də cəsarətlə vuruşdu. Döyüş meydanlarında azğın düşmənə qan uddurdu. Bütün vətənsevərlərimiz kimi Azərbaycan Ordusunun əsgəri Rəşid Mədinovun da amalı, arzusu qəsbkar Ermənistan silahlı qüvvələrini məğlub etmək, Qarabağ və Şərqi Zəngəzuru otuz ilə yaxın davam edən işğaldan qurtararaq azadlığa qovuşdurmaq idi...**

Rəşid Mədinov 1996-cı il aprelin 24-də Xaçmaz rayonunun Yeni Həyat qəsəbəsində dünyaya gəlib. Rəşid əslən Qubanın Qrız kəndindəndir. Qrızlar çoxsaylı Qafqaz xalqlarından biridir.
O, 2002-ci ildə Nazim İsayev adına tam orta məktəbin birinci sinfinə gedib. 2012-ci ildən isə təhsilini Bakı Dövlət Sosial-İqtisadi Kollecində davam etdirib. O, kollecin "Bank işi" ixtisasına qəbul olunub.
Rəşid uşaqlıqdan zəhmətkeş idi. Kollecdə təhsil aldığı illərdə həm oxuyur, həm də işləyirdi ki, xərclərini özü qarşılaya bilsin.
Kolleci 2015-ci ildə bitirdi. Həmin ilin iyulunda həqiqi hərbi xidmətə yollandı. Üç ay Gəncədə hərbi təlimlər keçdikdən sonra xidmətini Murovdağda davam etdirdi. Onun əsgəri xidmət dövründə də işğalçı Ermənistan silahlı qüvvələrinin təxribatlarının ardı-arası kəsilmirdi. Ermənistan 1990-cı illərdə işğal etdiyi Azərbaycan torpaqlarını nəinki geri qaytarmaq niyyətində deyildi, ölkəmizə qarşı qəsbkarlıq siyasətini davam etdirməyə cəhd göstərirdi. Odur ki, 1994-cü ilin mayında imzalanan atəşkəs sazişinə əməl etmirdi. Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun mövqelərini, dinc sakinlərin yaşayış yerlərini intensiv olaraq atəşə tuturdu. 2016-cı ildə Aprel döyüşləri də Ermənistanın işğalçılıq siyasəti nəticəsində başladı. Baş artilleriya atıcısı olan əsgər Rəşid Mədinov o zaman Murovdağda düşmənə ağır zərbələr endirən igid hərbçilərimizin sırasında idi. Aprel döyüşlərində böyük qəhrəmanlıqlar göstərən Rəşid 3 tərifnamə və 3 fərqlənmə diplomu ilə təltif edildi. 2017-ci ilin əvvəllərində o, həqiqi hərbi xidmətini başa vurdu.
Vətənin çağırışına hər zaman hay verməyə hazır olan gənclərimizdən biri idi Rəşid. O günlər gəldi. Rəşid Mədinov da Azərbaycan ərazilərinin işğaldan azad edilməsi üçün düşmən güllələrinə sinəsini sipər etdi...
O, 2020-ci il sentyabrın 20-də ümumi təlimlərə çağırıldı. Təlimlər bir həftə çəkdi. Sentyabrın 27-də İkinci Qarabağ müharibəsi başladı. Rəşid Mədinov əvvəlcə Murovdağ, sonra Füzuli uğrunda gedən döyüşlərdə artilleriya bölmələrinin tərkibində vuruşdu. Rəşid müharibə meydanında böyük qəhrəmanlıqlar göstərən igid əsgər, etibarlı silahdaş oldu.
Füzuli uğrunda gərgin döyüşlər gedirdi. Rəşid Mədinovun son döyüşü də Füzulinin Pirəhmədli kəndi yaxınlığında oldu. Oktyabrın 13-ü idi. Əsgər yoldaşı yaralanaraq atəş altında qalmışdı. Rəşid silahdaşını xilas etmək üçün bir an belə tərəddüd etmədən irəli atıldı. Döyüş yoldaşını çiyninə alıb ərazidən çıxararkən məkrli

düşmənin Rəşid Mədinovun yaxınlığına atdığı iriçaplı minomyot mərmisinin qəlpəsi qorxmaz əsgərimizin qarın boşluğuna dəydi. Ağır yaralanan qəhrəmanımız şəhid oldu.
Şəhid Rəşid Mədinov doğulub boya-başa çatdığı Xaçmaz rayonunun Yeni Həyat qəsəbə qəbiristanlığında oktyabrın 14-ü böyük izdihamla dəfn edildi.
Prezident İlham Əliyevin sərəncamlarına əsasən, İkinci Qarabağ müharibəsində göstərdiyi şücaətlərə görə, Rəşid Nəzər oğlu Mədinov ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medallarına layiq görüldü.
Torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan Rəşid Mədinovun xatirəsini əbədiləşdirmək məqsədilə 2022-ci ildə Xaçmaz rayonunun Yeni Həyat qəsəbəsində abidə-bulaq kompleksi istifadəyə verildi.